**Müstəqillik Günü münasibətilə Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası Mahmud Kaşqari adına Beynəlxalq Fondu ilə birgə tədbir keçirib.**

Bu barədə verilən məlumata görə, tədbirdə Yasamal rayon MKS-nin direktoru, Fəxri mədəniyyət işçisi, tarix üzrə fəlsəfə doktoru Lətifə Məmmədova vurğuladı ğını, bu mühüm tarixi və ictimai-siyasi hadisənin milli yaddaşda yeri və rolunun ətraflı təhlil edildiyini, dövlət quruculuğu təcrübəsi baxımından hərtərəfli öyrənildiyini vurğuladı. Millət vəkili Azərbaycan Xalq Cümhuriyyətinin Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi olduğunu və cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlərin müstəqil dövlətçiliyi-




# Kitabxanada müstəqilliyimizin 107-ci ildönümü qeyd edilib

ki, yola saldığımız XX əsr tarixə təkcə elm və texnika əsri kimi deyil, həm də milli dirçəliş, müstəmləkə imperiyalarının dağılması, milli dövlətlərin yaranması əsri kimi düşdü. Azərbaycan Demokratik Respublikasının Türk və İslam dünyasında ilk parlamentli respublika, ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi olduğunu bildirdi, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddətdə böyük nailiyyətlər və qalibiyyətlər əldə etdiyini diqqətə çatdırdı.

Milli Məclisin deputatı, Mahmud Kaşğari adına Beynəlxalq Fondun prezidenti Cavanşir Feyziyev müstəqilliyini bərpa etdikdən sonra hər il bu bayramın ölkəmizdə böyük təntənə ilə qeyd olunduğunu bildirdi. Keçirilən tədbirlərdə cümhuriyyət dövrünə bir daha nəzər salındımizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi nöqteyi-nəzərindən böyük əhəmiyyət kəsb etdiyini qeyd etdi.

Yazıçı-publisist, politoloq Reyhan Mirzəzadə, şair, yazıçı-publisist Gülzar İbrahimova, filologiya elmləri doktoru Esmira Fuad, Özbəkistandan gələn qonaqlar - Əlişir Nəvai adına Özbəkistan Dövlət Universitetinin professoru Gülbahor Ashurova, Özbəkistan Dövlət Pedaqoji İnstitutun professoru Dilorom Adilova, Özbəkistan Yazıçılar Birliyinin sədr müavini Gayrat Majid tədbirdə çıxış edərək, cəmi 23 ay yaşayan cümhuriyyətin türk toplumlarının istiqlal məfkurəsində dərin iz buraxmasından bəhs etdilər. Bildirilib ki, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisidir, onun bütün demokratik ənənələrinə sadiqdir və bu ənənələri yaşadır. Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi də AXC-nin Azərbaycanın dövlətçilik tarixindəki yerinə və roluna verilən böyük önəmin ifadəsidir. Bu gün biz AXC-nin 107-ci ildönümünü qalib və məğrur xalq kimi böyük qürur və fəxarətlə qeyd edirik.

Ali məktəb tələbələri Bəxtiyar Vahabzadənin "Bayraq", Zəlimxan Yaqubun "Məhəmməd Əmin kişi" şeirlərini səsləndirdilər. Tədbir iştirakçıları Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunmuş videoçarxı izlədilər, "İstiqlalımız əbədidir" adlı kitab sərgisinə baxdılar. Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə qoyulmuş abidə və Məhəmməd Əmin Rəsulzadənin büstü ziyarət edildi.

Müstəqillik Günü ilə əlaqədar M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasına Telman Abbasov adına 225 №-li tam orta məktəbin kitabsevər şagirdləri çəkdikləri videoklipi də təqdim etdilər.

Bayram günündə Mərkəzi Kitabxananın Fəxri oxucusu, Azərbaycana vurğun olan türk əsilli şotland şairi Qraham Riçard Smit "Cənab Prezident" şeirini təqdim etdi. Şeir klassik sestina formasında yazılmışdır və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi və fəaliyyətini poetik dildə tərənnüm edir.

**M.MUSTAFA,**
**"Respublika".**